© Q.M.Səmədov, 2007

# LƏNKƏRAN-ASTARA İQTİSADİ RAYONUNDA ƏHALİNİN SƏMƏRƏLİ ƏRAZİ TƏŞKİLİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

**Q.M.Səmədov**

*Azərbaycan MEA H.Ə.Əliyev adına Coğrafiya İnstitutu*
*AZ1143, Bakı, H.Cavid prosp., 31*

Məqalədə müasir dövrdə məskunlaşma sistemində baş verən dəyişikliklər, bu dəyişikliklərin həyata keçirilməsinin zəruriliyi təhlil edilir. Məskunlaşmanın iqtisadi əsaslarının yenidən qurulması, bazar münasibətlərinə uyğun təsərrüfat obyektlərinin təşkil edilməsi onların istehsal etdiyi məhsulların yüksək keyfiyyətli olması şəraitində mümkündür.

Lənkəran-Astara iqtisadi rayonunda sosial-iqtisadi inkişafın təmin edilməsində, əhalinin həyat səviyyəsinin yüksəldilməsində, onların məşğulluğunun artırılmasında yerli təbii şərait və təbii ehtiyatlardan istifadə edilməsi mühüm rol oynayır.

**Mövzunun aktuallığı**: Bazar iqtisadiyyatı şəraitində əhalinin məskunlaşmasının nizamlanması yeni tələblərə uyğun şəkildə həyata keçirilir. Bu zaman bazar iqtisadiyyatının əsasını təşkil edən tələb və təklif qanunları əsasında istehsalın və xidmət sahələrinin qurulması əsas şərtdir.

Əhalinin ərazi təşkili onun iqtisadi və sosial həyat şəraitini səmərəli təşkil etmək, ərazinin fiziki-coğrafi şəraitindən asılı olmayaraq vahid ərazi sistemlərinin yaranması və idarə olunması deməkdir. Təsərrüfatın bazar qanunları əsasında qurulması, sağlam rəqabət şəraitində onun inkişaf etdirilməsi, əhalinin məskunlaşmasını nizamlamaq üçün davamlı iqtisadi inkişafa nail olunması, təsərrüfatın sahə və ərazi strukturunun təkmilləşdirilməsi əhalinin ərazi təşkilində mühüm rol oynayır. Çünki əhalinin özünə yaşayış yeri seçərkən təbi-coğrafi amillərlə yanaşı, sosial-iqtisadi amillər də mühüm rol oynayır.

Əhalinin səmərəli ərazi təşkilində qarşıya qoyulan məqsəd məskunlaşmanın daha səmərəli və perspektivli olması, məhsuldar qüvvələrin yerləşməsinin yaşayış məntəqələrinin inkişafına və əhalinin həyat səviyyəsinin yüksəlməsinə xidmət etməsidir.

**Tədqiqatın nəticələri:** Lənkəran-Astara iqtisadi rayonunda əhalinin ərazi təşkili və məskunlaşmanın nizamlanması zamanı ərazinin coğrafi mövqeyi, relyef-iqlim xüsusiyyətləri nəzərə alınır. Ərazinin qeyri-bərabər mənimsənilməsi, düzən ərazilərdə şəhərlərin, iri kənd yaşayış məntəqələrinin və kənd aqlomerasiyalarının olması əhalinin sıxlığının artmasına səbəb olmuşdur. Kiçik və orta şəhərlərdə sosial-iqtisadi şəraitin yaxşılaşdırılması məskunlaşmanın idarə edilməsində mühüm rol oynaya bilər.

Məskunlaşma mərkəzlərinin müəyyən edilməsi zamanı kənd və şəhər məntəqələrinin yerinə yetirdiyi funksiyalarla yanaşı, onların ətraf ərazilərə təsirini və əlaqələrini nəzərə almaq vacibdir. Düzən ərazilərdə iqtisadi rayonun əhalisinin 73,7%-i yaşayır. Əhalinin yarıdan çox hissəsinin düzən ərazilərdə məskunlaşması bir çox problemlər yaradır. Bunların həll edilməsi əhalinin sayı və sıxlığı artdıqca çətinləşir. Urbanizasiya səviyyəsinin aşağı olması və düzən ərazilərdə olan məskunlaşma areallarında əhalinin sıxlığının yüksək olması dağətəyi və alçaq dağlıq ərazilərdə məskunlaşan əhalinin yerləşməsində, torpaqla təmin edilməsində və təsərrüfat obyektləri qurulmasında problemlər yaradır.

İqtisadi rayonda məskunlaşan əhalinin sosial-iqtisad və mədəni-mənəvi tələbatlarının tam ödənilməməsi, həyat səviyyəsinin getdikcə aşağı düşməsi, iş yerlərinin az olması, regionda mövcud olmuş müəssisələrin fəaliyyətinin dayanması onların ərazidən getməsinə səbəb olur.

İnzibati rayonlara daxil olan ərazilərdə iqtisadi-sosial, təsərrüfat-təşkilat işləri, mədəni xidmət funksiyalarını rayon mərkəzləri yerinə yetirir. İqtisadi rayonda iri kəndlər sosial-mədəni, təsərrüfat, inzibati (kənd bələdiyyələri) idarəetmə funksiyaları yerinə yetirirlər.

Kənd məskunlaşmasında rayon mərkəzləri olan şəhərlər, eləcə də kiçik və orta şəhər məntəqələri olan qəsəbələr əhəmiyyətli rol oynayır. Kəndlərin yerinə yetirdiyi funksiyalardan və relyef xüsusiyyətlərindən asılı olaraq onlarda

yaşayan əhalinin sayı dəyişir. Kəndlərdə əhalinin sayının artması məskunlaşmanın inkişafı üçün əhəmiyyətlidir və keyfiyyət dəyişməsidir. Belə kəndlərdə sosial infrastrukturun qurulması onların su, işıq, istiliklə təminatının yaxşılaşması, həyat səviyyəsinin də yüksəlməsi əhalinin miqrasiyasının azalmasına gətirib çıxarır. Bu proseslər digər demoqrafik proseslərə də müsbət təsir göstərir.

Lənkəran-Astara iqtisadi rayonunda olan kənd məskunlaşmasında iri kəndlər çoxfunksiyalı olmaqla ətrafdakı kənd məskunlaşmasında dayaq karkası rolunu oynayır.

Lənkəran-Astara iqtisadi rayonuna daxil olan inzibati rayonlarda məskunlaşma mərkəzlərinin müəyyən edilməsi və onların təsiri altında olan areallların ayrılması yaşayış məntəqələrinin həmin ərazilərdə cəmləşməsinə görə müəyyən edilir. İqtisadi rayonun şəhər yaşayış məntəqələri Bakı-Astara magistral avtomobil yolu boyunca yerləşmişdir. Şəhər məntəqələri arasındakı orta məsafə 15 km-dir. Şəhər məntəqələrinin 5 km-lik radiusda təsiri daha çoxdur.

Lənkəran-Astara iqtisadi rayonunda məskunlaşmanın formalaşmasında torpaq-iqlim və relyef şəraiti ilə yanaşı, kənd təsərrüfatı və sənayenin yerləşməsi də mühüm amildir. Məskunlaşmanın formalaşmasında əmək ehtiyatlarının sayı, tərkibi, təhsil-peşə səviyyəsi də mühüm rol oynayır. Sosial infrastruktur şəraiti də məskunlaşmada əsas amillərdən biri kimi nəzərə alınmalıdır.

Lənkəran-Astara iqtisadi rayonunda əhalinin ərazi təşkilində şəhər yaşayış məntəqələrinin inkişaf etdirilməsi mühüm əhmiyyət kəsb edir. Əhalinin şəhərlərdə toplanması ilə eyni vaxtda sosial infrastruktur şəbəkəsini genişləndirmək, yeni iş yerləri yaratmaq, əhalinin həyat səviyyəsini yüksəltmək üçün təminat şəraitini yaxşılaşdırmaq zəruridir.

Şəhərlər təkcə inzibati mərkəz rolunu oynamır. Şəhərlərdə sənayenin inkişaf etdirilməsi ətrafda olan kənd yaşayış məntəqələrində əhalinin işlə təmin edilməsində mühüm əhmiyyət kəsb edir. Bu məntəqələr əhalinin sosial həyat şəraitini yüksəltmək üçün dayaq mərkəzləri kimi çıxış edir (Eminov Z, 2005).

Sənayecə zəif inkişaf etmiş şəhərlər təşkilati və idarəetmə funksiyası ilə yanaşı, həm də onun ətrafında olan məntəqələrin əhalisinə xidmət edən mərkəzlər rolunu oynayır.

Lənkəran-Astara iqtisadi rayonunda mövcud olan şəhərlər kiçik və orta şəhərlər qrupuna daxildir. Burada kiçik və orta şəhərləri inkişaf etdirməklə məskunlaşma sisteminə təsir etmək mümkündür. Bu şəhər məntəqələrinin inkişaf etdirilməsi əhalinin iri şəhərlərə miqrasiyanın qarşısını almaqla yanaşı, əhalinin demoqrafik göstəricilərinə təsir göstərir. Görülən tədbirlər şəhər və kənd əhalisinin işlə təmin olunmasında əhəmiyyətlidir.

Şəhər məntəqələrindən uzaqlaşdıqca onların ətraf ərazilərə təsiri azalır (Mehrəliyev, 2003). Şəhərlərin ətraf ərazilərlə təsir dairəsini artırmaq üçün kiçik və orta şəhərlərin sosial-iqtisadi inkişafının yaxşılaşdırılması, kənd məntəqələrində ilkin emal və infrastruktur sahələrinin inkişaf etdirilməsi zəruridir. Bu proses eyni zamanda əhalinin demoqrafik göstəricilərinin nizamlanması və idarə edilməsi üçün şərait yaradır (Mehrəliyev, 2003; Muradov, 2004). Kiçik və orta şəhərlərin sosial-iqtisadi inkişafı, təsərrüfat strukturunun təkmilləşdirilməsi miqrasiya proseslərini məhdudlaşdırmaqla yanaşı, məskunlaşmanın təkmilləşdirilməsinə şərait yaradır. Urbanizasiya səviyyəsinin yüksəlməsi yeni iş yerlərinin yaranmasına səbəb olur, insanlar iş və peşə seçimində daha geniş imkanlara malik olurlar. Şəhərlərdə istehsal və emal müəssisələri, sosial infrastruktur obyektləri çox olduğundan əmək ehtiyatlarından istifadə etmək üçün daha əlverişli şərait yaranır.

Sosial-iqtisadi inkişaf səviyyəsinin yüksək olduğu şəhərlərdə sənaye obyektləri və xidmət sahələrinin yerləşməsi kəndlərin sosial-iqtisadi inkişafına əhəmiyyətli təsir göstərir. İqtisadi rayonda mövcud olan əmək ehtiyatlarından düzgün istifadə olunmaması onların bir hissəsinin işsiz qalmasına gətirib çıxarır. Belə vəziyyət əhalinin miqrasiyasını artırır, onun cins-yaş tərkibinin dəyişməsinə, demoqrafik proseslərin pozulmasına səbəb olur (1991-2005-ci illərdə…, 2005; Mehrəliyev, 2003).

İqtisadi rayonun əlverişli torpaq-iqlim ehtiyatları və relyef şəraiti kənd təsərrüfatının inkişafı üçün əlverişlidir. Lakin kənd təsərrüfatı məhsulları emal edən texnologiyanın və ixtisaslı kadrların çatışmaması, nəqliyyat, enerji və s. problemlərlə əlaqədar olaraq məhsul sona qədər emal edilmir. Becərilən kənd təsərrüfatı məhsullarının əsas hissəsi istehlak üçün bazara çıxarılır.

**Lənkəran** iqtisadi rayonun iqtisadi səviyyəsinə və əhalisinin sayına görə ən böyük şəhərdir (Əhalinin 1999-cu il…, 2000-2001; Azərbaycanın statistik…, 1992-2005). Şəhərin təsərrüfat strukturunda kənd təsərrüfatı məhsullarının emalına əsaslanan yeyinti sənayesi müəssisələri və xidmət sahələri mühüm yer tutur. Lənkəran şəhəri regionda sənaye cəhətdən inkişaf etsə də, istehsal sahələrinin məhdudluğu, əmək tutumlu sahələrin az olması, son dövrlərdə onların çoxunun tam gücü ilə işləməməsi, nəticədə əhalinin məşğulluğunun aşağı düşməsi yüksək təbii artım şəraitində şəhər əhalisinin zəif artmasına səbəb olur.

Lənkəran şəhərində mövcud olan çay emalı müəssisələri müasir texnologiyalar əsasında fəaliyyət göstərir. Bu sahənin daha da inkişaf etdirilməsi üçün potensial şərait vardır.

Subtropik və sitrus meyvələrinin becərilməsi və onların emalı da Lənkəran rayonunda inkişaf etdirilə bilər. Bu meyvələrin konservləşdirilməsi, şirələr, hazırlanması üçün müasir texnologiyalardan istifadə olunması regionun sosial-iqtisadi inkişafına, kənd təsərrüfatı məhsulları becərilməsinin artımına, əhalinin məşğulluğunun yüksəlməsiənə şərait yaratmış olar.

Lənkəran şəhərində balıqçılığın və balıq emalı müəssisələrinin inkişaf etdirilməsi qarşıda duran məsələlərdən biridir. Bu sahənin daha da inkişaf etməsi həm respublika, həm də iqtisadi rayon əhalisinin balıq və balıq məhsullarına olan tələbatının ödənilməsində mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, görüləcək işlər Lənkəran şəhərinin əhalisinin məşğulluq səviyyəsinin yüksəlməsində də mühüm rola malikdir.

İqtisadi potensialına, yerinə yetirdiyi iqtisadi, sosial, təsərrüfat-təşkilat funksiyasına və əhalisinin sayına görə regionun ikinci yaşayış məntəqəsi **Cəlilabad şəhəridir**. Şəhərin iqtisadi bazasını kənd təsərrüfatı məhsullarının emalına əsaslanan yeyinti sənayesi, toxuculuq, tikinti, xidmət və s. sahələr təşkil edir. Şəhərin iqtisadi bazasının yenidən qurulması, mövcud sahələrin təkmilləşməsi vacibdir. Burada əhaliyə xidmət infrastruktur sahələri, yerli tələbatı ödəyən istehsal sahələri bazar iqtisadiyyatına uyğun yaradılmalıdır. Şəhərdə olan yeyinti sənayesi müəssisələri keyfiyyətli məhsul istehsal etməli, rəqabətə davam gətirməlidir. Cəlilabad rayonunda üzümçülüyün yenidən bərpa edilməsi həm kənd əhalisinin, həm də şəhər əhalisinin bir çox hissəsinin məşğulluğunun təmin olunması ilə yanaşı, iqtisadi cəhətdən səmərəli olar.

**Astara rayonunun** da iqtisadi bazası əsasən kənd təsərrüfat məhsullarının istehsalı və emalına əsaslanır. Rayonun təsərrüfatında əsas yeri əkinçilik tutur. Sənaye sahələrinin inkişaf etdirilməsinə geniş şərait olmasına baxmayaraq, uzun illər bu iş həyata keçirilməmişdir. Rayonun elektrik enerjisinə tələbatını ödəmək, əhalinin məşğulluğuna kömək məqsədi ilə Astarada modul tipli İES tikilmişdir.

**Masallı rayonunda** urbanizasiya səviyyəsinin yüksəldilməsi üçün şəhərlərdə yeni istehsal və xidmət obyektləri yaradılmalı, yaşayış üçün əlverişli mənzil şəraiti qurulmalı, onlar işıq, su, qaz ilə təmin edilməlidir. Sənaye sahələri əsasən kənd təsərrüfatı məhsulları emal edən yüngül və yeyinti sənayesi sahələrindən ibarətdir. Son vaxtlar mebel sənayesinin inkişaf etməsi əhalinin məşğulluğunun təmin edilməsində mühüm rol oynayır.

İqtisadi rayonda turizmin inkişafı üçün əlverişli təbii-iqlim şəraiti vardır. Kurort-sanatoriya və turizm obyekilərinin müasir tələblərə uyğun qurulması yerli və xarici turistlərin gəlməsinə şərait yaratmaqla yanaşı, regionun sosial-iqtisadi inkişafına əhəmiyyətli təsir göstərə bilər. Rayonda mövcud olan mineral bulaqlardan süfrə sularının qablaşdırılması da mühüm əhəmiyyət kəsb edir.

**Yardımlı və Lerik rayonları** əsasən dağlıq ərazidə yerləşən heyvandarlıq rayonlarıdır. Bu rayonlarda arıçılıq, ətlik-südlük heyvandarlıq inkişaf etmişdir. Taxılçılıq və tütünçülük əkinçiliyin inkişaf etmiş sahələridir.

Bu rayonlarda sosial sferanın inkişafı və xidmət səviyyəsi də aşağı səviyyədədir. Sosial sferanın geriliyinə əsas səbəb uzun illər ətraf regionların, xüsusilə də dağlıq ərazilərin inkişafına kifayət qədər maliyyə vəsaiti ayrılmamasıdır. Dağlıq ərazilərin əksər hissəsi, o cümlədən Lerik və Yardımlı rayonları xarici ölkələrlə həmsərhəddir. Bu baxımdan dağlıq ərazilərdə əhalinin məskunlaşmasının yenidən qurulması, kənd məskunlaşmasının davamlı inkişafını təmin edilməsi üçün sosial-iqtisadi şəraitin yaradılması vacibdir.

Avtomobil yollarının bərpası və yenilərinin inşası, elektrik enrejisinə olan tələbatın ödənilməsi, qaz kəmərlərinin çəkilməsi və əhaliyə fasiləsiz təbii qaz verilməsi əhalinin sosial prob-

lemlərinin həll edilməsi, miqrasiyasının azalması, yaşayış məntəqələrinin inkişafı üçün mühüm amillərdir. Rayonlarda sənətkarlıq və xalçaçılığın inkişaf etdirilməsi əmək ehtiyatlarının işlə təminatına şərait yaradır.

**Yekun:** Lənkəran-Astara iqtisadi rayonunda məskunlaşmanın səmərəli istiqamətdə qurulması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi üçün kənd təsərrüfatı məhsullarının istehsalının artırılması, onun emalını həyata keçirən müəssisələrin yenidən qurulması zəruridir. Məskunlaşmanın sosial bazasının da əhalinin müasir tələbləri səviyyəsində qurulması lazımdır.

## ƏDƏBİYYAT

Azərbaycanın statistik göstəriciləri. 1992-2005, DSK, Bakı

EMINOV, Z.N., 2005. Azərbaycanın əhalisi. Çıraq, Bakı.

Əhalinin 1999-cu il siyahıyaalmasının yekunları. 2000-2001, DSK, Bakı.

MEHRƏLIYEV, E.Q., 2003. Azərbaycan Respublikasında demoqrafik proseslərin regional təhlili. Bakı.

MURADOV, Ş.M., 2004. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. Elm, Bakı.

1991-2005-ci illərdə Azərbaycan Respublikasında əhalinin sayı və təbii hərəkəti, 1991-2005, Bakı, DSK.

***Məqaləyə c.e.d. N.H.Əyyubov rəy vermişdir***